# Elmi nəşrlərlə bağlı görüş keçirilib



Təhsil Nazirliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşəbbüsü və dəstəyi ilə ali təhsil müəssisələrinin rəhbər şəxsləri ilə görüş keçirilib.

Görüşün əsas məqsədi "SCOPUS", "Web of Science" və digər beynəlxalq nəşr və jurnallarda məqalələrin yazılması və çap olunması istiqamətində bilik və təcrübələrin artırılması olub.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev qonaqları salamlayaraq tədbirin əhəmiyyətini vurğulayıb.

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin sektor müdiri Yaşar Ömərov çıxış edərək son dövrlər elmin inkişafı istiqamətində Təhsil Nazirliyi tərəfindən görülən işlər barədə məlumat verib və ölkəmizin beynəlxalq reytinq göstəricilərinin yüksəldilməsi üçün sözügedən Yol Xəritəsinin əhəmiyyətini qeyd edib.

Daha sonra Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının "Texnologiya və innovasiya" üzrə İşçi qrupunun "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H indeksi) yaxşılaşdırılması üzrə" alt qrupunun rəhbəri, Elektron Hökumətin İnkişafı Mərkəzinin direktoru Fariz Cəfərov "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması üzrə 2022-ci il üzrə Yol Xəritəsi"nin icrası istiqamətində görülmüş işlər barədə məlumat verib.

Tədbirdə həmçinin Bakı Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov "Bakı Dövlət Universiteti tərəfindən uğurlu elmi nəşrlər istiqamətində görülmüş işlər barədə", Bakı Mühəndislik Universitetinin elm və innovasiya üzrə prorektoru Elçin Süleymanov "Elm və ali təhsil müəssisələrinin beynəlxalq elmmetrik bazalarda korporativ profillərinin, fərdi səhifələrinin yaradılması", Azərbaycan Universitetinin elmi və innovasiya üzrə prorektoru Yusif Qasımov "Elmi nəşrlərin hazırlanması (o cümlədən elmi jurnalların beynəlxalq elmi məlumat bazalarına uyğun indeksləşdirilməsi) sahəsində mövcud tələblərin beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilməsi", Azərbaycan Dövlət İqtisad Universitetinin şöbə müdiri Emin Qəribli "Elm və ali təhsil müəssisələrinin differensial əmək haqqı sisteminin beynəlxalq təcrübəsi və onun tətbiqi imkanları", Elmin İnkişafı Fondunun əməkdaşı Bəhruz Nəcəfov "Qrant Layihələrinin Elektron İdarəolunması Sistemi" mövzularında təqdimatlarla çıxış ediblər.

Görüşün sonunda mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, tədbir 16 mart 2022-ci il tarixində Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar Yol Xəritəsi"nin icrası çərçivəsində baş tutub.

Yüzdən çox iştirakçının qatıldığı tədbirdə 40-dan çox ali təhsil müəssisəsinin prorektor, müvafiq struktur bölmə rəhbəri, alimlər və gənc tədqiqatçılar iştirak ediblər.

Azərbaycan müəllimi.- 2022.- 10 iyun.- S.5.